HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
31 MAY 2019-CU İL/ №010 (90)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



TƏHSİLƏ PUL XƏRCLƏMƏYƏN HACI QARALAR

3



BİR AYLIQ RAMAZAN BİR ÖMÜRLÜK QAZANCIMIZ OLSUN

5



HANSI FAKÜLTƏNİ SEÇMƏLİ?

6



FRİDRİX BODENŞTEDTİN “ŞƏRQDƏ MİN BİR GÜN” ƏSƏRİ

## GÜRCÜSTAN MÜSTƏQİLLİYİNİN 101-Cİ İLİNİ QEYD EDİB



Gürcüstan müstəqilliyinin 101-ci ildönümünü qeyd edib. 1918-ci il mayın 26-da Təsis Məclisi Tbilisidə Gürcüstan Demokratik Respublikasının yaranışını bəyan edib. 26 may – Müstəqillik Günü 1991-ci ildən Gürcüstanın əsas dövlət bayramı kimi qeyd olunur.

Mayın 26-da Tbilisi və regionlarda silahlı qüvvələrin yeni əsgərlərinin ənənəvi təntənəli andiçmə mərasimləri, həmçinin bayram sərgiləri və konsertləri keçirilib.

Prezident Salome Zurabişvili andiçmə mərasimində nitq söyləyib.

“Müstəqillik uğrunda bütün mübarizə tarixi bizə bunun daima müdafiə etməli olduğumuz nailiyyət olduğunu xatırladır. Biz hər gün dövlətimizin üzərində durduğu özülü qurmalı, möhkəmləndirməli və müdafiə etməliyik”, - S.Zurabişvili deyib.

Onun sözlərinə görə, “Sovet düşüncəsinin qalıqları bizə mane olur, bizi geriyə çəkir və Gürcüstanın azad Avropa dövləti kimi bərqərar olmasına imkan vermir”.

Prezident həmçinin qeyd edib ki, Gürcüstanın müstəqilliyi onun müxtəlifliyindədir və gürcü dilinin öyrənilməsinin bütün Gürcüstan ərazisində əlçatan olması vacibdir.

“Ərazimizdən işğal xətti keçdiyi müddətcə müstəqillik tam olmayacaq və bizim vətəndaşlarımız Rusiyanın zoraki rejiminin qurbanları olaraq qaldığı müddətcə müstəqillik tam olmayacaq”, - prezident bildirib.

Baş nazir Mamuka Baxtadze də hərbçiləri salamlayıb, onları Müstəqillik Günü və andiçmə mərasimi münasibətilə təbrik edib.

O, həmçinin Abxaziya və Cənubi Osetiyada yaşayan vətəndaşlara müraciət edib:

“Mən istəyirəm ki, bizim abxaz və osetin həmvətənlərimizi də bizim ümumi vətənimizin Müstəqillik Günü münasibətilə təbrik edim – bu, hamının birləşməli olduğu gündür… Bizim əcdadlarımız bizim ümumi vətənimizdə sülh və firavanlıq uğrunda mübarizə aparıb. Mən sizə demək istəyirəm ki, sizin hər birinizin ağrısı bizim ağrımızdır. Və Gürcüstanın hər bir uğurunu, Gürcüstanın gələcəyini biz yalnız sizinlə təsəvvür edirik”.

## TBİLİSİDƏ AZƏRBAYCANIN RESPUBLİKA GÜNÜ QEYD EDİLİB

Paytaxt Tbilisidə 28 may - Azərbaycanın Respublika Günü və Diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunmuş rəsmi qəbul keçirilib.

Tədbirdə prezident Salome Zurabişvili, xarici işlər naziri David Zalkaliani, müdafiə naziri Levan İzoria, Marneuli rayonunun icra başçısı Zaur Darğallı, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov, hökumət rəsmiləri, diplomatik korpusun nümayəndələri, azərbaycanlı və gürcü deputatlar, iş adamları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim hər iki ölkənin dövlət himnlərinin ifası ilə başlayıb.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən danışıb.

O, Azərbaycan-Gürcüstan münasibətlərinə toxunaraq tarixən iki dövlət və xalqın mehriban qonşu və qardaş olduğunu bildirib, ölkələr arasında qarşılıqlı anlaşma, sıx



əməkdaşlıq və strateji tərəfdaşlığın olduğunu qeyd edib.

S.Zurabişvili çıxışında Azərbaycanı Respublika Günü münasibətilə təbrik edərək, dost Azərbaycan xalqına sülh və əmin-amanlıq arzu edib.

O, may ayının Cənubi Qafqaz bölgəsi üçün önəmli olduğunu vurğulayıb. Prezident müstəqillik yolunda Gürcüstan və Azərbaycanın birgə və oxşar yol keçdiyini qeyd edib.

## TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

Müstəqillik günü ilə bağlı Türkiyə Cümhuriyyətinin müdafiə naziri Hülusi Akar Gürcüstanda səfərdə olub. Bayram tədbirində iştirak etdikdən və baş nazir Mamuka Baxtadze ilə görüşdən sonra H.Akarı həmkarı Levan İzoria Müdafiə Nazirliyində qarşılayıb.

Rəsmi qarşılama mərasimindən sonra iki ölkənin müdafiə nazirləri ikitərəfli görüş keçirib. Görüşdə tərəflər Gürcüstan və Türkiyə arasında müdafiə sahəsində mövcud olan və gələcək əməkdaşlıq məsələlərini müzakirə ediblər.

L.İzoria Gürcüstanın ərazi bütövlüyü və Avroatlantik məkana inteqrasiyasını dəstəklədiyinə görə, eləcə də Gürcüstanın müdafiə qüvvələri və inkişaf prosesində göstərdikləri köməyə görə Türkiyəyə təşəkkürünü bildirib. Nazir türkiyəli həmkarına ölkənin müdafiə qüvvələrində həyata keçirilən islahatlar barədə məlumat verib.

Tərəflər həmçinin hərbi təhsil sahəsində birgə əməkdaşlıq, Türkiyə və Gürcüstan hərbçilərinin birgə təlimlərdə iştirakı məsələlərini də nəzərdən keçiriblər.




Nazirlər Gürcüstan-Türkiyə və Gürcüstan-Türkiyə-Azərbaycan formatında hərbi sahədə əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduqlarını bildiriblər. Onlar qeyd ediblər ki, ikitərəfli və üçtərəfli formatlarda əməkdaşlığın genişləndirilməsi bölgədə təhlükəsizliyin gücləndirilməsinə töhfə verə bilər.

Sonra Türkiyənin müdafiə naziri və heyət üzvləri Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsini yad edərək Qəhrəmanlar Meydanında yerləşən memoriala əklik qoyublar.



# TƏHSİLƏ PUL XƏRCLƏMƏYƏN HACI QARALAR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, ölkə əhalisi ən az pul təhsilə xərcləyir. Belə ki, 2018-ci ildə əhalinin təhsil xərcləri 3,4 faiz təşkil edib. Məlumatda o da göstərilir ki, Gürcüstan əhalisi ən çox pul – 37,4 faiz ərzağa, içkiyə və siqaretə xərcləyib.**

Əvvəla, əhalidə gərək pul ola ki, xərcləyə. İkincisi də, ərzağın, içkinin, siqaretin qiyməti ucuz olmadığı kimi, təhsil də ucuz başa gəlmir. Bunun dəftər-kitabından, geyim-kecimindən tutmuş yol və başqa xərcləri də var.

Xərcləməyə pulu olmayanları heç cür qınamaq olmaz, belə insanlar üçün hər sahədə güzəştlər, yardımlar olmalıdır. Bir də var bütün sahələrdə pul xərcləməkdə əliaçıqlıq edib, təhsilə, məktəbə gəldikdə isə Hacı Qaralıq edən valideynlər. Bəli, məhz valideynlər. Çünki övladının təhsil almasında, düzgün istiqamətləndirilməsində, tərbiyəsində valideynlərin rolu birincidir, sonra məktəb və başqa mühit gəlir. Bu baxımdan çox zaman valideynlər qınanan müəllimlərin kölgəsində görünməz olurlar. Şagirdlərin pis təhsil almasında bütün günahı müəllimlərin üstünə atmaq da insafsızlıq olar. Bəli, hər bir uşağın yaxşı təhsil almaq hüququ var və bu öhdəlik müəllimlərin boynundadır. Müəllimlər buna görə dövlət büdcəsindən əmək haqqı alırlar və hər bir şagirdə eyni səviyyədə, heç bir ayrı-seçkilik etmədən yazmağı, oxumağı, fikirləşməyi öyrətməlidirlər. Bunu bilirik. Bəs valideynlərin bu işdə boynuna hansı öhdəliklər düşür? Uşağının oxumamasında hər dəfə müəllimi günahlandıran valideynlər bircə gün bir sinifdə 45 dəqiqə dayana da bilməzlər. Üstəgəl belə valideynlər özləri yazmaq-oxumaq bilmirlər, uşaq məktəbdən qayıdanda onun məktəbdə nə etdiyi, hansı dərsi keçdiyi ilə maraqlanmırlar, dəftərlərini, kitablarını, gündəliyini yoxlamırlar. Axı qayğı təkcə övladın qarnını tox saxlayıb, paltarlarını tərtəmiz yumaqdan ibarət deyil. Yaxşı ki, şagirdlərə dərsliklərin çoxu pulsuz verilir, belə olmasaydı çox şagird ili kitabsız başa vurardı. Çünki bizimçün kitaba pul verməkdən mənasız heç nə yoxdur bu dünyada. Bunu dəqiq bilirəm, çünki özüm də bir müddət məktəbdə müəllim olmuşam. Yenə deyirəm, söhbət imkanı olmayan valideynlərdən getmir. Söhbət uşağını hər həftə yeni paltarda məktəbə göndərən, restoranlarda ad günü keçirən, Çin səddinə oxşar hasarlar ucaldan, Versal sarayına oxşar evlər bəzədən, sünnətə, toya, cehizə müəllimin ömründə əlində tutmadığı qədər pullar xərcləyənlərdən gedir. Mən 40 qəpiklik dəftəri belə uşaqların valideynlərinə aylarla aldıra bilmirdim.

Bəli, yuxarıdakı rəsmi statistikanı müəllimlər qeyri-rəsmi olaraq yaxşı bilirlər. Biz təhsilə pul xərcləyən deyilik. Məsələ pulumuzun olub-olmamağında deyil, biz təhsilə xərclənən pulu niyəsə itirilmiş, batmış, havaya sovrulmuş hesab edirik. Biz gəlirli sahələrə yatırım edirik ki, əvəzində daha artıq qazanaq. Biz təhsilin maya dəyərini də pulla hesablayırıq, təhsilə edilən yatırımın heç vaxt batmayacağını dərk etmirik. Çünki biz alverçiyik. Yaşamaq mübarizəmiz də ən azı ac qalmamaqdan, ən çoxu isə varlanıb qonşudan dala qalmamaqdan ibarətdir. Biz müəllimlərə dəstək olmaq əvəzinə onlardan tələb edirik, tələb edirik ki, uşağımız məktəbi bitirəndə deputat olsun, pul qazana bilsin, yaxşı hesablaya bilsin, amma uşağımızın heç xəttini belə tanımırıq, keçdiyi fənlərdən xəbərimiz yoxdur, ümumiyyətlə, hansı dildə, hansı əlifba ilə oxuduğunu belə bilmirik. Biz ömrümüzdə bir dəfə kitab mağazasına girib uşağımıza hədiyyə olaraq kitab almarıq. Bilirəm, alanlar var. Mən onları nəzərdə tutmuram. Onlar "biz" deyil. Onların sayı "Qırmızı kitaba" düşəcək qədər azdır.

Ən pisi də təhsilə olan bu biganəliyimizin nəsildən nəslə ötürülməsidir. Təhsilsiz, savadsız valideyn istəsə də uşağına yazısını yazmaqda, dərsini öyrənməkdə kömək edə bilməyəcək, uşağının suallarına cavab verə bilməyəcək, başa sala bilməyəcək və əksər hallarda belə valideynlərin övladları da özləri kimi olurlar, çünki bu uşaqlar suallarına cavab ala bilmirlər, valideyn köməyindən istifadə edə bilmirlər. Nəticədə isə avtoritet hesab etdikləri valideynlərinin bilməməklərini özləri üçün örnək edirlər – atam, anam bilmir, mən bilmək üçün niyə özümü yormalıyam, oxumalıyam, yazmalıyam. Atam, anam bu sualın cavabını bilmirsə deməli cavabı yoxdur, bu çalışmanı həll edə bilmirsə deməli həlli mümkün deyil və sair və ilaxır. Beləliklə də təhsilə biganə, təhsilə pul xərcləməyi dünyanın ən mənasız işi hesab edən, valideynlərinin yolu ilə gedən növbəti savadsız nəsil yetişir.

## GÜRCÜSTANIN KATOLİKOS-PATRİARXI İKİNCİ İLİANIN DAVİD QARECİ HAQQINDA BƏYANATI



Son zamanlar Qareci kompleksi ilə bağlı baş verən hadisələrin analizi elə təəssürat yaradır ki, kilsə icmasından dolayı öz məqsədini həyata keçirmək üçün başqa qüvvələr Azərbaycan və Gürcüstan arasında ciddi problem yaratmaq istəyir və təəssüf ki, bu və ya digər ölkədə söykənəcək yer tapır.

Amma təxribatlara belə asan uymamalıyıq!

Dövlətlər arasında danışıqlar aparılan, kilsənin müzakirələrə qoşulmaması, Azərbaycan tərəfi ilə münasibətlərin bir çox vasitəsinin olduğu, beynəlxalq təşkilatlar və dost ölkələrin köməyi ilə problemin sivil formada və ədalətli şəkildə həllinin mümkün olması zamanı bu resursları nəzərə almamaq və kəskin bəyanatlar vermək, hərəkətlər etmək məhz bizim milli maraqlarımıza ziddir. Düşünürük ki, gərginlik yaratmaq Azərbaycan tərəfi üçün də qəbuledilməz idi.

Bu problemin ağrılı olduğu hər kəsə müraciət edirik, sakitliyi qorumaq vacibdir; Daha çox anlayış və vətəndaşlıq məsuliyyəti göstərək, xüsusən ruhaniləri və mömin şəxsləri buna çağırıram.

Eləcə də Gürcüstan və Azərbaycan hakimiyyətinə müraciət edirəm. Ədaləti yerinə yetirmək üçün davamlı danışıqlar aparsınlar ki, bizim xalqlarımız və ölkələrimiz arasında olan dostluq münasibəti qorunsun və daha da möhkəmlənsin.

Öz növbəsində Gürcüstan kilsəsi bu proseslərdə fəal iştirak etməyə hazır olduğunu bildirir və ümid edirik ki, hər iki tərəf Allahın izni ilə problemlərə qalib gəlməyi bacaracağıq.

Bununla yanaşı Azərbaycan hakimiyyəti və xalqını Müstəqillik Günü münasibəti ilə təbrik edirəm və onlara sülh və əmin-amanlıq arzulayıram.

## BGMİ-NİN ŞEYXİ: "GÜRCÜSTANDA MƏSCİD TİKİNTİSİ İLƏ BAĞLI MÜRACİƏTLƏRƏ CAVAB VERİLMİR"



"Gürcüstanda müstəqilik əldə olunan vaxtdan bu günə qədər məscidlərin sayı üç dəfə artıb. Lakin yenə də bir çox böyük məntəqələr və kəndlərdə ibadət evlərinə ciddi ehtiyac var". Bu barədə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) şeyxi Hacı Ramin İgidov Gürcüstan parlamentində keçirilən dini məsələlər üzrə İşçi qrupun görüşündə bildirib.

Onun sözlərinə görə, bir çox hallarda məscidin tikilişi üçün Dini Məsələlər üzrə Dövlət Agentliyinə və yerli idarətmə orqanlarına müraciət olunsa da müsbət cavab ala bilmirlər.

"Bir çox halda heç cavab belə verilmir, bəzən bəhanələr gətirilir və bəzən də onların səlahiyyətində olmadıqlarını bildirərək məsələnin həllindən yayınırlar. Hesab edirik ki, bu problemin həlli istiqamətində müəyyən tənzimləyici qayda və qanuna ehtiyac var", - deyə R.İgidov bildirib.

İşçi qrupun görüşündə Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, müxtəlif dini icmalar, QHT və hüquq-müdafiə təşkilatlarının nümayəndələri iştirak ediblər.

## OMBUDSMAN: "GÜRCÜSTANDA ETNİK ZƏMİNDƏ DÖZÜMSÜZLÜK KƏSKİN PROBLEM OLARAQ QALIR"



"Gürcüstanda milli azlıqların təhsili, dövlət dilinin öyrənilməsi və onlara məxsus mədəni irsin qorunması aktual problemlər olaraq qalır". Bu barədə Gürcüstan ombudsmanı Nino Lomcaria parlamentin İnsan haqları və vətəndaş inteqrasiyası komitəsinin iclasında illik hesabatın təqdimatında bildirib.

Onun sözlərinə görə, milli azlıqların qərar qəbuletmə prosesində lazımı səviyyədə iştirak etməməsi də problemli məsələlərdən biridir.

N.Lomcaria deyib ki, etnik və irqi zəmində dözümsüzlük Gürcüstanda kəskin problem olaraq qalır. O, bununla bağlı ötən ilin sentyabrında hüquq müdafiəçisi Vitali Səfərovun Tbilisidə ksenofobiya zəminində qətlə yetirilməsini misal çəkib.

İnsan haqları üzrə müvəkkil ölkədə dini etiqad azadlığı sahəsindəki problemlərə də toxunub: "Son illər ibadət yerlərinin inşası ilə bağlı baryerlər və dini dözümsüzlük halları müşahidə olunur. Bununla yanaşı, siyasi mühitdə fərqli dini baxışlara görə kəskin münasibət, kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə nifrət ritorikasına da rast gəlinir. Dini azlıqların əksəriyyəti üçün ictimai yerlər və mediaya çıxış əlçatan deyil".

## TÜRKİYƏNİN DƏSTƏYİ İLƏ 1500-Ə YAXIN AİLƏYƏ RAMAZAN SOVQATI PAYLANIB



Bütün Gürcüstan Müəslmanları İdarəsinin (BGMİ) təşəbbüsü ilə ölkənin müxtəlif bölgələrində yaşayan müsəlmanlara Ramazan sovqatı paylanılıb. Aksiya çərçivəsində sosial təminatsız və ehtiyac içində yaşayan 1500-ə yaxın ailəyə ərzaq bağlamaları təqdim olunub.

Xeyriyyə aksiyasının təşkilinə Türkiyənin Dini Məsələlər üzrə Fondu və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) dəstək verib.

Ramazan sovqatlarının bölgələrə çatdırılmasında Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, BGMİ-nin müftisi Yasin Əliyev və digər rəsmi şəxslər də iştirak ediblər.

## TÜRKİYƏ TBİLİSİDƏ FİZİKİ MƏHDUDİYYƏTLİ ŞƏXSLƏR ÜÇÜN LAYİHƏ HƏYATA KEÇİRƏCƏK




Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) Tbilisidə şəhər meriyası ilə əməkdaşlıq çərçivəsində fiziki məhdudiyyətli şəxslər üçün layihə həyata keçirəcək. Bu barədə Türkiyənin Gürcüstandakı səfirliyi məlumat yayıb.

Layihə çərçivəsində Tbilisinin mərkəzindəki Melikişvili küçəsi, Rustaveli prospekti və Azadlıq meydanında yerləşən yeraltı keçidlərdə 6 xüsusi lift (platforma) quraşdırılacaq.

Ümumi dəyəri 100 min ABŞ dolları olan layihənin məqsədi fiziki məhdudiyyətli şəxslərin şəhərin sıx məskunlaşmış yerlərində asan və rahat hərəkət etməsini təmin etməkdir.

## RUSTAVİ ŞƏHƏRİNDƏ İMKANSIZ VƏ EHTİYAC SAHİBİ AİLƏLƏRƏ ƏRZAQ YARDIMI EDİLİB



Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) müftisi və Gürcüstan Gənclərini Maarifləndirmə Assosiasiyasının təşkilatçılığı ilə Rustavi şəhərində imkansız ailələrə ərzaq yardımı paylanıb.

BGMİ-nin müftisi Hacı Yasin Əliyev çıxış edərək Ramazanın yardımlaşma ayı olduğunu vurğulayıb. O, İslam dininin millətindən və dinindən asılı olmayaraq hər bir ehtiyac sahibi olan insana kömək edilməsini əmr etdiyini bildirib.

Daha sonra Gürcüstan Gənclərini Maarifləndirmə Assosiasiyasının sədri Bəxtiyar Tanrıverdiyev Ramazan ayının bərəkətindən, əhəmiyyətindən danışaraq yardımları təşkil edən Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına və Aziz Mahmud Hüdayi Vəqfinə təşəkkür edib.

Sonra isə Rustavi şəhər bələdiyyəsinin sosial yardım şöbəsinin rəhbəri Tea Qaqieva çıxış edərək bu cür yardım kampaniyasını təşkil edən qurumlara təşəkkürünü bildirib. Gürcüstan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin Kvemo Kartli bölgəsi üzrə nümayəndəsi Abay Paşayevin çıxışından sonra əhaliyə ərzaq yardımları paylanıb.

## İKİNCİ KOSALI İSLAM MƏDRƏSƏSİNDƏ İFTAR SÜFRƏSİ TƏŞKİL OLUNUB




Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) təşkilatçılığı və Aziz Mahmud Hüdayi Vəqfinin dəstəyi ilə İkinci Kosali İslam Mədrəsəsində iftar süfrəsi təşkil olunub.

Qurani-Kərimdən ayələr oxunduqdan sonra Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev qonaqları salamlayaraq iştirak etdikləri üçün onlara təşəkkürünü bildirib və sözü Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Hacı Yasin Əliyevə verib. Müfti çıxışında Ramazan ayının əhəmiyyətindən bəhs edib və iftar süfrələrinə və ərzaq yardımlarına görə Gürcüstanda fəaliyyət göstərən xeyriyyə təşkilatlarına, həmçinin bu şəraiti yaradan Gürcüstan dövlətinə təşəkkürünü bildirib.

Daha sonra Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev, Marneulinin yeni seçilmiş meri Zaur Dargallı, Türkiyə səfirinin dini işlər üzrə müşaviri Ahmet Erdem, Türkiyədə fəaliyyət göstərən Aziz Mahmud Hüdayi Vəqfinin təmsilçisi Şuayib Başhan və başqaları çıxış ediblər.

Qeyd edək ki, GYMD digər bölgələrdə də iftar süfrələri təşkil edib.

## BİR AYLIQ RAMAZAN BİR ÖMÜRLÜK QAZANCIMIZ OLSUN



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**Qurani-Kərimin daha çox oxunduğu, insani və əxlaqi ərdəmlərin daha güclü bir şəkildə həyata əks olunduğu, ictimai yardımlaşmanın və paylaşmanın artdığı, birlik və bərabərlik ruhunun canlandığı Ramazan ayının sonlarına doğru gedirik. Bəli, hər başlanğıcın bir sonu olduğu kimi Ramazan ayının da bir sonu var.**

Ramazan Allahın bəxş etdiyi saysız-hesabsız nemətlərdən insanın müəyyən bir müddət ərzində özünü uzaq tutaraq bir mənada bu nemətləri əldə edə bilməyən və ona ehtiyac duyan insanların halını anlamağı və paylaşmağı öyrədən oruc ayıdır.

Başdan sona bir bolluq, rəhmət və bərəkət mövsümü olan bu günlərdə iradələri gücləndirən oruc, comərdliyi, ikramı və paylaşmağı öyrədən iftar, ibadətin sevinc və coşğusunu bütün cəmiyyətə yayan təraveh, xeyir və bərəkətin nə olduğunu göstərən sahur, bütün bu yüksək dəyərlərin mənəvi dünyamızı əhatə etdiyi Qədr gecəsi, ağıl və könülləri mənəvi bir atmosferdə zirvəyə daşıyan və dini duyğunun kollektiv olaraq paylaşılmasını təmin edən xətm və qarşılıqlı Quran tilavətləri, cəmiyyətin ictimai yaralarını sarıyan zəkat və fitrələr, cəmiyyətin birlik və bərabərliyini gücləndirən bayram ilə Ramazan ayı, fərdi həyatda dindarlığın, ictimai həyatda həmrəylik və qaynaşmanın sıx olaraq yaşanmasına və müsəlmanlar olaraq təmizlənmə və yenilənmə şüurumuzun təzələnməsinə vəsilə olur.

Bütün bu gözəllikləriylə birlikdə Ramazan ayı bizlərdən ayrılarkən də bir gözəllik buraxaraq ayrılıb gedir. İmkanları zəif olan din qardaşlarımıza yardım etməyimizi bizdən istəyir. Bunun adına da fitr sədəqəsi deyilir. Və bu yardımı da bayram namazı qılınmadan öncə verməyimizi istəyir ki, onlar da bayramlıq alsınlar.

Ramazan bayramının hədislərdə keçən əsl adı, "Eydül-fıtr", yəni "Fitr bayramı"dır. Müsəlmanlar bayram namazından əvvəl bir mənada "bədənin zəkatı" olaraq yuxarıda da vurğuladığımız kimi fitr sədəqəsi verərlər. Fitr sədəqəsi "Ramazan bayramına qovuşan və təməl ehtiyaclarının xaricində müəyyən bir miqdar mala sahib olan müsəlmanların özləri və vəlayətləri altındakı kəslər üçün yerinə yetirməklə öhdəçilikli olduqları maddi bir ibadət"dir.

Sad ibni Evs əl-Ənsari Rəsulullahın (s.ə.v.) belə buyuduğunu deyir: Ramazan bayramının səhəri mələklər yollara tökülər və belə səslənərlər:

"Ey müsəlmanlar birliyi! Kərəmi bol olan Rəbbinizin rəhmətinə qaçışın. O, bol yaxşılıq və lütfkarlıqda olar. Sonra onlara bol-bol mükafatlar verilər. Siz gecə ibadət etməklə əmr olundunuz və əmri yerinə yetirdiniz. Gündüz oruc tutmaqla əmr olundunuz, orucu tutdunuz və Rəbbinizə itaət edin, mükafatınızı alın."

Bizlər də bayramların bu birləşdirici, bütünləşdirici və qaynaşdırıcı xüsusiyyətlərini bilməli, əvvəlcə yaxın ətrafımızla bayramlaşmalı, birlik və bütünlük içində olmalıyıq. Ölkəmizdə və dünyada hüzur və dincliyin olması üçün dua etməliyik. Uca Yaradana ətrafımızda olan qarşıdurmaların dayandırılması və bütün insanların barış içində yaşayaraq gerçək bayrama qovuşmaları üçün dua etməliyik.

Ramazan hər ilin bəlli günlərində gələr, insanları hər cəhətdən tərbiyələndirər və gedər. Əsas olan odur ki, bu ayda aldığımız dərsləri, qazandığımız mənəviyyatı il boyu qoruya biləк. Necə ki Ramazanda yeməkdən çəkinirik, eləcə də il boyu haram yeməkdən uzaq olaq. Əgər bu ayda qeybətdən qaçırıqsa, bunun din qardaşımızın ətini yemək qədər iyrənc bir hərəkət olduğunu il boyu xatirimizdə tutaq. Yardımlaşmanın təkcə bu aya məxsus olmadığını dərk edərək hər zaman ehtiyacı olan insanlara Allahın bizə verdiklərindən infaq edək. Rəflərimizdə toz basmış Qurani-Kərimi fürsət tapdıqca oxuyub dərk etməyə çalışaq.

Qısacası, Ramazanı sadəcə ac qalmaqla yola verməyək. Allahın Ramazan vasitəsiylə bizə vermək istədiyi mesajları qavramağa çalışaq. Min aydan daha xeyirli olan Qədr gecəsini əhya edib sonra da bir il boyu div yuxusunu yatmayaq. Sabah bir sorğu gününün, ilahi məhkəmənin bizim üçün qurulacağını dərk edərək ömrümüzü layiqli bir şəkildə yaşayaq.

Nəticə olaraq elə etməliyik ki, bir aylıq Ramazan bir ömürlük qazancımız olsun.

## MÜƏLLİM KOMPETENSİYASINI TƏSDİQ ETMƏK ÜÇÜN İMTAHANA QEYDİYYAT OLUNMUŞ NAMİZƏDLƏRƏ TƏLİMLƏR KEÇİRİLƏCƏK



Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz müxtəlif fənlər üzrə və ümumi bacarıqlarla bağlı təlimlərdə iştirak etmək istəyənlərin qeydiyyatına başlayıb.

Təlimlər ictimai məktəbdə çalışan təcrübəçi müəllimlər və müəllimlik axtarışında olan müəllim kompetensiyasını təsdiq etmə imtahanlarına qeydiyyatdan keçmiş şəxslərə aiddir.

Təlim iştirakçıları sertifikat imtahanlarının tələbləri, imtahan testlərinin strukturu ilə tanış olacaqlar. Test tapşırıqları üzərində çalışmaq yolu ilə özlərinin güclü və zəif tərəflərini müəyyən edəcəklər ki, imtahan üçün hazırlıq prosesini daha yaxşı planlaşdırsınlar, testi doldurmaq texnikasını daha yaxşı öyrənsinlər, fənn bilgilərini mobilləşdirməyi bacarsınlar.

Təlimdə iştirak etmək təcrübəçi müəllimlər və müəllimlik axtarışında olanlar üçün pulsuzdur.

**Qeydiyyat vaxtı iyunun 2-nə kimidir.**

## BİRİNCİ SİNİFLƏRİN ELEKTRON QEYDİYYATI BAŞLAYIB



2019-2020-ci tədris illəri üçün birinci siniflərin ümumi elektron qeydiyyatı 21 may, saat 09:00-dan başlayıb.

Qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Mərkəzi sisteminin veb-səhifəsində (registration.emis.ge) həyata keçirilir və 12 iyunda başa çatacaq.

Ümumtəhsil müəssisələrində III mərhələdə qeydiyyatdan keçmiş şagirdin qəbul olunması üçün vacib sənədlərin qəbulu cari ilin 13 iyunundan 30 iyununa qədər həyata keçiriləcək.

2019-2020-ci tədris ilində ümumi təhsilin başlanğıc pilləsində təhsil alması üçün 6 yaşı tamam olmuş və 10 yaşdan yuxarı olmayan uşaqların birinci sinfə qeydiyyat olması mümkündür.

## HANSI FƏNNƏ DAHA ÇOX ABİTURİYENT QEYDİYYAT OLUNUB

Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi 2019-cu ilin Vahid Milli İmtahanlarının seçim fənləri üzrə statistikasını yayımlayıb. Məlumatda abituriyentlərin daha çox hansı fənnə qeydiyyat olunduqları göstərilir:

**Tarix** – 12 500-ə qədər abituryent;
**Coğrafiya** – 11 500-ə qədər abituriyent;
**Riyaziyyat** – 7 500-ə qədər abituriyent;
**Biologiya** – 5000-dən artıq abituriyent;
**Ədəbiyyat** – 3 500-ə qədər abituriyent;
**Mülki təhsil** – 3000-ə qədər abituriyent;
**Kimya** – 2000-ə qədər abituriyent;
**Fizika** – 1000-ə qədər abituriyent;
**İncəsənət** – 500-ə qədər abituriyent.

Qeyd edək ki, bu il Vahid Milli İmtahanlara qeydiyyat martın 12-si başlayıb və aprelin 3-nə qədər davam edib. 2019-cu ilin Vahid Milli İmtahanlarına 41 minə qədər abituriyent qeydiyyat olunub.

## PENSİYA YAŞINA ÇATMIŞ MÜƏLLİMLƏR DÖVLƏT MÜKAFATINI NECƏ ALMALI VƏ PEŞƏLƏRİNİ NƏ ZAMAN TƏRK ETMƏLİDİRLƏR?

Məlum olduğu kimi pensiya yaşında olan, yalnız təcrübəçi statusu olan müəllimlərə peşələrini tərk etdikləri halda Təhsil Nazirliyi müəyyən üstünlüklər təklif edir: müəllim 2 illik əmək haqqını birbaşa alacaq və ömürlük sağlamlıq sığorta paketi ilə təmin olunacaq.

**Peşəsini tərk etmək istəyi olan pensiya yaşlı müəllimlər nə etməli və veriləcək pul "mükafatını" necə almalıdırlar?**

Pensiya yaşlı təcrübəçi müəllimə dövlət tərəfindən təklif olunan mükafatı almaq istəyini bildirmək imkanı 2019-cu il ərzində bir neçə halda veriləcək:

Əgər müəllimin imtahan vermək istəyi yoxdursa bu haqda 2019-cu ilin may ayının sonuna qədər bildirməlidir;

Əgər müəllim imtahandan keçməzsə mükafat almaq istəyi ilə bağlı 2019-cu ilin sonuna qədər Təhsil Nazirliyinə bildirməlidir.

Əgər müəllim kompetensiyasını artırmaq üçün təkrar imtahan vermək istəmirsə, yaxud imtahanı verib, amma statusunu qaldırmaq istəmirsə mükafat almaq istəyi haqqında 2019-cu ilin sonuna qədər bildirməlidir.

Dövlət mükafatının verilməsinə 2019-cu ilin sentyabrından başlanılacaq.

Pensiya yaşlı təcrübəçi müəllimə iki dəfə imtahan vermək və statusunu qaldırmaq imkanı verilir. Hər iki imtahanı uğursuz verdiyi halda isə onlar verilən üstünlükdən faydalana və 2019-cu ilin payızında dövlət mükafatı ala bilərlər.

Qeyd edilməlidir ki, 2019-cu ilin sonuna qədər heç bir halda imtahanı verə bilməyən pensiya yaşlı bütün təcrübəçi müəllimlər müvəqqəti müqavilə əsasında məktəbin ehtiyacından dolayı fəaliyyətlərinə davam edə bilərlər.

## 2019-CU İLİN YAYINDA MÜƏLLİMLƏR İMTAHANININ MİNİMAL BALLARI VƏ FƏNLƏRƏ ƏSASƏN FAİZLƏRİN BÖLÜNMƏSİ

2019-cu ilin yayında planlaşdırılan imtahanlar üçün müəllim kompetensiyasının təsdiqlənməsi və fənn imtahanlarının müddəti və balları artıq məlumdur. Ancaq imtahana qeydiyyat olunmuş namizədlərin əsas suallarından biri minimal ballarla bağlıdır.

"EDU.ARİS.GE"yə Müəllimlər Evindən bildiriblər ki, bu baxımdan bu il heç bir dəyişiklik yoxdur və ötən il olduğu kimi müəllim olmaq istəyi olanlar kompetensiyalarını təsdiqləmək üçün 61% və daha artıq toplamalıdırlar. Təcrübəçi müəllimlər üçün isə kredit toplamaq sistemi mövcuddur.

Bu il imtahana sonuncu kursda təhsil alan tələbələr də qeydiyyat oluna bilər. Ancaq imtahanın nəticələrindən kvalifikasiyalarını təsdiqlədikdən sonra yararlana bilərlər.

"EDU.ARİS.GE" təcrübəçi müəllimlər üçün fənn və peşəkar kompetensiyanı təsdiqləyən testin ballar sistemi ilə nəzərdə tutulmuş faizlərə görə 2018-ci ildə olan və bu ildə qüvvədə olacaq sistemi təqdim edir.

**Müəllimlik istəyi olanlar üçün:** Balların 61%-ni və daha artığını toplamalısınız.

**Çalışan pedaqoqlar üçün:** 31-41%-lə 1 kredit qazana biləcəksiniz; 4 kredit – 41-51%; 7 kredit – 51-61%; 10 kredit – 61% və daha çox.

Təcrübəçi, yəni çalışan pedaqoqlar üçün fənlərə əsasən qəbul balları və bu ballara uyğun kredit əldə etməklə bağlı məlumat fənlərə əsasən belədir:

**Fənnə görə faizlərin ballarla bölünməsi – 1 kredit qazanmaq üçün 31%-dən 41%-ə qədər**

1. Gürcü dili və ədəbiyyatı – 22-28
2. Riyaziyyat – 16-20
3. Coğrafiya – 18-23
4. Biologiya – 20-25
5. Kimya – 22-28
6. Fizika – 22-28
7. Tarix – 19-24
8. Mülki təhsil – 19-24
9. Xarici dillər – 28-36
10. İbtidai sinif (I-IV) – 25-32
11. Gürcü dili və ədəbiyyatı (I-VI) – 20-26
12. Riyaziyyat (I-VI) – 20-26
13. Təbiətşünaslıq (I-VI) – 20-26
14. Təsviri və tətbiqi incəsənət – 19-24
15. Gürcü dili ikinci dil kimi – 29-38
16. İnformasiya və kommunikasiya texnologiyaları – 22-28
17. İdman – 22-28
18. Musiqi – 22-28
19. Peşəkar bacarıqlar – 22-28

**Faizin fənlərə əsasən ballarla bölünməsi – 4 kredit qazanmaq üçün 41%-dən 51%-ə qədər**

1. Gürcü dili və ədəbiyyatı – 29-35
2. Riyaziyyat – 21-26
3. Coğrafiya – 24-30
4. Biologiya – 26-31
5. Kimya – 29-35
6. Fizika – 29-35
7. Tarix – 25-30
8. Vətəndaş təhsili – 25-30
9. Xarici dillər – 37-45
10. Başlanğıc pillə (I-IV) – 33-40
11. Gürcü dili və ədəbiyyatı (I-VI) – 27-32
12. Riyaziyyat (I-VI) – 27-32
13. Təbiətşünaslıq (I-VI) – 27-32
14. Təsviri və tətbiqi incəsənət – 25-30
15. Gürcü dili ikinci dil kimi – 39-47
16. İnformasiya və kommunikasiya texnologiyaları – 29-35
17. İdman – 29-35
18. Musiqi – 29-35
19. Peşəkar bacarıqlar – 29-35

**Faizlərin fənlərə əsasən ballarla bölünməsi – 7 kredit toplamaq üçün 51%-dən 61%-ə qədər**

1. Gürcü dili və ədəbiyyatı – 36-42
2. Riyaziyyat – 27-31
3. Coğrafiya – 30-35
4. Biologiya – 32-37
5. Kimya– 36-42
6. Fizika – 36-42
7. Tarix – 31-36
8. Vətəndaş təhsili – 31-36
9. Xarici dillər – 46-54
10. Başlanğıc pillə (I-IV) – 41-48
11. Gürcü dili və ədəbiyyatı (I-VI) – 33-39
12. Riyaziyyat (I-VI) – 33-39
13. Təbiətşünaslıq (I-VI) – 33-39
14. Təsviri və tətbiqi incəsənət – 31-36
15. Gürcü dili ikinci dil kimi – 48-57
16. İnformasiya və kommunikasiya texnologiyaları – 36-42
17. İdman – 36-42
18. Musiqi – 36-42
19. Peşəkar bacarıqlar – 36-42

**Faizlərin fənlərə əsasən ballarla bölünməsi – 10 kredit toplamaq üçün 61%-dən yuxarı**

1. Gürcü dili və ədəbiyyatı – 43-70
2. Riyaziyyat – 32-52
3. Coğrafiya – 36-59
4. Biologiya – 38-63
5. Kimya – 43-70
6. Fizika – 43-70
7. Tarix – 37-60
8. Vətəndaş təhsili – 37-60
9. Xarici dillər – 55-90
10. Başlanğıc pillə (I-IV) – 49-80
11. Gürcü dili və ədəbiyyatı (I-VI) – 40-65
12. Riyaziyyat (I-VI) – 40-65
13. Təbiətşünaslıq (I-VI) – 40-65
14. Təsviri və tətbiqi incəsənət – 37-60
15. Gürcü dili ikinci dil kimi – 58-95
16. İnformasiya və kommunikasiya texnologiyaları – 43-70
17. İdman – 43-70
18. Musiqi – 43-70
19. Peşəkar bacarıqlar – 43-70

***Səhifəni hazırladı: Aynurə Əliyeva***

# HANSI FAKÜLTƏNİ SEÇMƏLİ?



Əvvəla bunu qeyd edim ki, bu həyatda tək və ən doğru deyə bir şey olmadığı kimi, tək və ən doğru seçim deyə bir şey də yoxdur.

Hazırda bu yazını oxuyan, əziz oxucu, əgər bu sətirləri oxumağa başladınsa, o zaman belə güman edə bilərəm ki, ya birbaşa sən özün, ya da bir yaxının öz həyatını və gələcəyini inşa etmək üçün ilk addımlarını atmaq üzrədir. Sizi yaxşı başa düşürəm, bir yandan önünüzdəki sonsuz kimi görünən seçimlər, digər yandan bütün həyatınıza təsir edəcək bir qərar verməli olmağın gətirdiyi narahatlıq gecənizi-gündüzünüzü bir-birinə qatıb. Xüsusilə belə qərar vermə dönəmlərində hər başda bir səs çıxır. Peşə seçimini çətin hala gətirən insanın həyat təcrübəsinin hələ çox az olduğu yaşlarda həyatının ən önəmli qərarlarından birini almağa məcbur olmasıdır.

Buna əlavə olaraq, əgər bir də ətrafınızda təcrübəli ailə fərdləri, məsləhətçi müəllim və s. kimi sizə yol göstərə biləcək qabiliyyətdə insanlar yoxdursa, üzünüzdə bir anda çiçək açırmışcasına onlarca stress sızanağının çıxması təəccüblü olmaz yəqin ki. Universitet seçimlərinin ən önəmli addımlarından biri fakültə seçimidir. Bir çoxumuz üçün universitetdə aldığımız təhsil kariyeramızın təməlini təşkil edir. Beləliklə, bu kritik qərarı verməzdən əvvəl özünə bəzi suallar verməli və bunların cavablarını vermən lazımdır. Məsələn, seçmək istədiyin fakültə və bu fakültənin dərsləri marağını çəkirmi? Fakültədə oxuyacağın dərslərdə necəsən, çətinlik çəkirsənmi? Məzun olduqdan sonra həmin sahə üzrə iş imkanları nə vəziyyətdədir? Bax, hansı fakültə sualının cavabı bu suallara verəcəyin cavablarda gizlənir.

**FAKÜLTƏ SEÇİMİNDƏ MARAQ VƏ BACARIQLI OLDUĞUN MÖVZULARI GÖZDƏN KEÇİR**

Abituriyentlər adətən hansı fakültəni secəcəklərindən əmin ola bilmirlər və ya seçdikləri fakültə ilə bağlı çox məlumat sahibi olmadan seçim edirlər. Bir fakültə seçməzdən əvvəl nələrə marağın olduğunu və seçəcəyin kariyeranın bacarıqların ilə bütünləşib-bütünləşmədiyini gözdən keçirməlisən.

Orta məktəb həyatın və məktəbdə gördüyün dərslər əslində seçimlərini etmək üçün sənə yaxşı bir təməl yaradır. Hansı sahənin diqqətini cəlb etdiyini, hansı mövzulara maraq duyduğunu və nələri öyrənməyi xoşladığını tapmaq və bunlar üzərində düşünmək yaxşı bir başlanğıc ola bilər.

**MƏZUN OLDUQDAN SONRA İŞ İMKANLARINI GÖZDƏN KEÇİR**

Fakültə seçimində önəmli faktorlardan biri də məzun olduqdan sonra həmin sahənin məzunlara verdiyi iş imkanlarıdır. Nəticə etibarilə, abituriyentlərin seçdiyi ixtisasların məzun olduqdan sonra onları inkişaf edən peşələrdən birinə yerləşdirib-yerləşdirməyəcəyini, həmin sahədəki işsizlik vəziyyətini və o sahədə iş tapmağın asanlıq dərəcəsi kimi bir çox məsələni irdələsələr sonrakı gün içləri daha rahat olar.

**NİYƏ "O" FAKÜLTƏNİ SEÇMƏLİYƏM?**

Sizdən əsas diqqət yetirməyinizi istədiyim nöqtə buradır. Bilirəm, hazırda ailəniz tərəfindən, habelə qohumlar və tanışlarınız tərəfindən durmadan müxtəlif fakültələr barədə məsləhətlər, tövsiyyələr verilir. Hələ həmin fakültəni oxuyub qurtaran "filankəslər"dən misallar da çəkirlər sizə. Unutmayın, uğur əldə etmək nisbi bir şeydir. Əgər biri hər hansı bir sahəni oxuyub uğur əldə etdisə, bu o demək deyil ki, mütləq sizdə də elə olacaq. Bir nəfər qonşu ölkədə ekonomika oxuyub yüksək maaşlı işə düzələ bildisə, bu o demək deyil ki, siz də öz yaşadığınız ölkədə eyni şəkildə iş tapa bilərsiniz. Bəlkə sizin yaşadığınız ölkədə ekonomika sahəsi elə də uğurlu deyil, şirkətlər azdır? Biri tibb fakültəsini bitirib həkim oldusa, bu o demək deyil ki, siz də mütləq həvəsə düşüb tibbi seçməlisiniz. Bəlkə sizin heç ümumiyyətlə insan anatomiyasına, kimyaya, biokimyaya, biofizikaya marağınız yoxdur? Odur ki, sizlərə durmadan məsləhət verəcəklər. Belə olan halda qərar verməkdə tələsməyin. Yuxarıda sadaladığım sualları özünüzə verin; həqiqətdə hansı sahəyə marağınız olduğunu müəyyənləşdirin; niyə məhz o fakültəni seçdiyinizi cavablandırmağa çalışın. Çünki doğrudan da bugünkü gün ali təhsil ocaqlarında təhsil alan gənclərimizin əksəriyyəti o sahəni niyə seçdikləri barədə suala tutarlı bir cavab verə bilmirlər. Bu suala tutarlı bir cavabı olmayan tələbə, hər zaman tərəddüd içərisində qalır. Dərslərdə bir balaca problemlə üzləşdiyi zaman "bəlkə də mən yanlış fakültə seçdim, mənim yerim bura deyildi" kimi fikirlərə qapılır.

Əziz oxucu, ümid edirəm, axtardığın sullarına cavab tapa bildin bu yazı ilə. Sənə gələcək həyatında və edəcəyin seçimlərində "kaş" yox, "yaxşı ki" deməyini arzu edirəm. Bir sonrakı yazıda görüşmək ümidi ilə sağlıqla qal.

***Elcan HACILI***
***Tbilisi Dövlət Universiteti, Tibb fakültəsi***
***@mesyoeljan***

# 2019-CU İLİN MÜƏLLİMLƏRİN KOMPETENSİYASINI TƏSDİQLƏMƏ İMTAHANININ MÜDDƏTİ VƏ ƏN YÜKSƏK BALLAR MƏLUMDUR

2019-cu il müəllimlərin kompetensiyasını təsdiqləməsi və fənn imtahanının müddəti və ən yüksək balları məlumdur.

Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi fənn/peşəkar bacarıqlar üzrə ən yüksək balları və vaxtı elan edib.

Gürcü dili və ədəbiyyatı: ən yüksək bal - 70, imtahanların vaxtı - 5 saat;
Riyaziyyat: ən yüksək bal - 52, imtahanın vaxtı - 5 saat;
Coğrafiya: ən yüksək bal - 59, imtahanın vaxtı - 5 saat;
Biologiya: ən yüksək bal - 63, imtahanın vaxtı - 5 saat;
Kimya: ən yüksək bal - 70, imtahanın vaxtı - 5 saat;
Fizika: ən yüksək bal - 70, imtahanın vaxtı - 5 saat;
Tarix: ən yüksək bal - 60, imtahanın vaxtı - 5 saat;
Mülki təhsil: ən yüksək bal - 60, imtahanın vaxtı - 5 saat;
Xarici dil: ən yüksək bal - 90, imtahanın vaxtı - 4 saat 15 dəqiqə;
• Dinləmə hissəsi - 16 bal.
• Yazı hissəsi - 22 bal.
• Oxu hissəsi - 36 bal.
• Nitq - 16 bal.
Başlanğıc pillə (I-IV): ən yüksək bal - 80, imtahanın vaxtı - 5 saat;
• Peşəkar bilik: ən yüksək bal - 62;
• Akademik bacarıqlar: ən yüksək bal -18.
Gürcü dili və ədəbiyyatı (I-VI): ən yüksək bal - 65, imtahanın vaxtı - 5 saat;
• Peşəkar bilik: ən yüksək bal - 47;
• Akademik bacarıqlar: ən yüksək bal - 18.
Riyaziyyat (I-VI): ən yüksək bal - 65, imtahanın vaxtı - 5 saat;
• Peşəkar bilik: ən yüksək bal - 4;
• Akademik bacarıqlar: ən yüksək bal - 18.
Təbiətşünaslıq (I-VI): ən yüksək bal - 65, imtahanın vaxtı - 5 saat;
• Peşəkar bilik: ən yüksək bal - 47;
• Akademik bacarıqlar: ən yüksək bal - 18.
Təsviri və tətbiqi incəsənət: ən yüksək bal - 60, imtahanın vaxtı - 4 saat;
Gürcü dili ikinci dil kimi: ən yükək bal - 95, imtahanın vaxtı - 5 saat 15 dəqiqə;
• Dinləmə hissəsi - 11 bal.
• Oxumaq hissəsi - 28 bal.
• Yazı hissəsi - 20 bal.
• Peşəkar bilik - 25 bal.
• Danışıq hissəsi - 11 bal.
İnformasiya və kommunikasiya texnologiyaları: ən yüksək bal - 70, imtahanın vaxtı - 3 saat 30 dəqiqə;
İdman: ən yüksək bal - 70, imtahanın vaxtı - 2 saat 30 dəqiqə;
Musiqi: ən yüksək bal - 70, imtahanın vaxtı - 4 saat;
Peşəkar bacarıqlar: ən yüksək bal - 70, imtahanın vaxtı - 5 saat.

# FRİDRİX BODENŞTEDTİN "ŞƏRQDƏ MİN BİR GÜN" ƏSƏRİ GÜRCÜ DİLİNDƏ

**Gürcü yazıçısı və tərcüməçisi Akaki Qelovani 1923-cü ildə anadan olmuşdur. 14 yaşında ikən onun ilk əsərləri dərc olunub. Mestiya Pedaqoji Texnikumunu bitirəndən sonra Tbilisi Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir. 1953-cü ildən onun şeirləri, hekayələri və romanları müntəzəm şəkildə dərc olunmağa başlayır. İlk kitabı Henrix Heynenin "Seçilmiş lirikası"nın tərcüməsi 1954-cü ildə nəşr olunmuşdur. "Svan balladası" (1963), "Epiqramlar" (1966) şeirlər toplusu, "Külə dönmüş şöhrət" (1961), "Şopenin ürəyi" (1961), "İşıq sütunu" (1965), "Tetnulday", (1971), "Svanetinin ağ papağı" (1976) romanlar, hekayələr və sair əsərlər onun qələminə məxsusdur. O, eləcə də İ.Höte, F.Şiller, H.Heyne, H.İbsen, S.Svayq, A.Qrifius, Apolonios Rodisel və başqalarının əsərlərini tərcümə etmişdir.**

**Onun dünya incəsənəti korifeyləri barədə yazdığı "Əbədi yaşar incəsənət" kitabı diqqətə layiqdir (1996). Akaki Qelovaninin şəxsi arxivi Milli Əlyazmalar Mərkəzində qorunub saxlanılır. Arxivi onun törəmələri 2009-cu ildə mərkəzə ianə ediblər. 1983-cü ildə onun tərəfindən geniş tərtib olunmuş "Mifologiya lüğəti" mühüm və çox vacib əsərdir. Burada müxtəlif dinlərlə əlaqədar məsələlər və terminlər asan və anlaşıqlı dil ilə izah olunub. Bu kitab geniş oxucu kütləsi üçün və məsələ ilə maraqlanan insanlar üçün nəzərdə tutulub. Akaki Qelovani bir sıra esse, oçerk, populyar broşüraların müəllifidir. Onun "Hucabi – Gürcü məbədi" hekayəsi beş dilə tərcümə olunmuşdur.**

**Akaki Qelovani 1996-cı ildə dünyasını dəyişmişdir.**

**Maraqlı haldır ki, onun gürcü dilinə tərcümə etdiyi və ön söz yazdığı tanınmış alman yazıçı və alimi Fridrix Bodenştedtin "Şərqdə min bir gün" əsəri 1965-ci ildə nəşr olunmuşdur.**

**Fridrix Bodenştedtin adı ilə sıx bağlı olan Azərbaycanın klassik şairi Mirzə Şəfi Vazeh barəsində Akaki Qelovaninin kitaba yazdığı ön sözün azərbaycanlı oxucular üçün maraqlı olacağını nəzərə alaraq tərcümə edib sizin ixtiyarınıza verirəm.**

**Hörmətlə: Mirzə MƏMMƏDOĞLU**

***(Əvvəli ötən sayda...)***

Bodenştedtin və Mirzə Şəfinin işinin mühakiməsinə keşməmişdən öncə alman şairin bir növ "Min bir gün"ü dolduran əsərlərə uyğun olaraq Gürcüstan və gürcü xalqı barədə fikirlərinin gedişini gözdən keçirmək istəyirik.

Gürcüstan tarixini Bodenştedt dağıntı və bərpanın əsrlik epopeyası kimi təsvir edir. Dağıdıcı, yabanı qüvvə millətin mədəniyyətinə, ədəbiyyatına, memarlığına, irəliləyişinə əngəllər törədirdi, lakin dərinə işləmiş xristianlığın kökləri və çiçəklənmiş mədəniyyət divar olaraq qalırdı ki, bunu da Avropanı dağıtmaq üçün hərəkətə gələn kobud ordular dalğası qırıq-qırıq edirdi...

Bodenştedt xilas olan xalqın işinə heyran qalıb.

Bodenştedt Gürcüstanı Brosse, Baqrationi, Dyubua və başqalarının əsərlərinə uyğun olaraq tanıyır ki, bunu da öz müşahidəsi ilə zənginləşdirir. Odur ki, onun qeydlərinə bir növ məna verilir. Aydındır ki, bu, yalnız tarixdir. Lakin tarixin kifayət qədər faktları heç bir zaman yoxdur və kolleksiyaçı kimi həddindən artıq zənginliyi olsa da hər halda nəyisə axtarır.

Bir çox müəllifin bir əsr bundan əvvəl məhz elə Bodenştedtin qeyd etdiyi barədə düzgün təsəvvürü yoxdur. Elə götürək, gürcülərin soy-tayfaları məsələsini. Bodenştedt tayfaları ayırd edir: gürcüləri, imeretləri, quriyalıları və svanları, başqa heç bir guşəni unutmur və belə bir nəticə çıxarır: "Bütün bunlar bir tayfanın şaxələridir, bir çox başqaları ilə birlikdə böyük bir dövlətin bədənini təşkil edəndə başında da Gürcüstan durürdu. Hamısı lap başdan vahid ana dilində, iberlər dili qrupuna daxil olan və Gürcüstanın çiçəklənməsi zamanı Qara dənizdən Xəzər dənizinə qədər, Terekdən Arazata qədər hökmranlıq edən gürcü dilində danışırdılar ("Qafqaz xalqları...").

Böyük Vinkelman (Alman sənətşünası, antik incəsənət tədqiqatçısı, arxeologiya elminin banilərindən biri Yohann İoaxim Vinkelman - Tərc.) və bir çox başqa fərqli avropalı kimi Bodenştedt də gürcülərin gözəlliyi və ləyaqətləri barədə yüksək fikirdədir: "Tamamilə götürülən, mübahisəsiz, gürcü xalqı yer üzərində məskunlaşan xalqlar arasında ən gözəl xalqlardan biridir. Hündür, boy-buxunlu, canı bərk kişilərə və düz, əksər hallarda iri, gözəl gözləri olan qəşəng, sərv boylu qadınlara burada addımbaşı rast gələrsiniz. Başqa xalqlara nisbətən, – elə çərkəzlərin, yunanların və ermənilərin arasında da... daha tez-tez. Yer üzərində gürcü kişiləri kimi gözəl və nəcib xalq yoxdur. Qonaqpərvərdirlər, qafqazlılar kimi, ümumiyyətlə, onların qılıncı kimi etibarlıdır, onların kəhər atları kimi mərddirlər, cəlddirlər, döyüş meydanında igiddirlər və öz ailələrində qayğıkeşdirlər... Hər hansı xalqın hansısa şəhərinə nisbətən libas və geyinib-kecinmək də burada daha zəngin və səliqəlidir".

Xalq ləyaqətinin ölçüsü olaraq Bodenştedt mədəniyyəti hesab edir. Gürcü xalqının mədəniyyəti vardır, bu, insanı nəcibləşdirir.

Şair-səyyah meqrellərin, quriyalıların və istərsə də svanların təsviri üzərində kifayət qədər geniş şəkildə dayanır. Meqreliyanın knyazı David Dadianinin boy-buxununu, görünüşünü, təmkinini bəyənib, camaatı isə itaətkardır və "Ayetenin polad biləkli törəmələri susurlar". Quriyalıları da gürcülərin mühüm tayfası olaraq "hər cür tərifə layiq" hesab edib – həddindən artıq sərv boylu qadınları, özlərinin alovlu gözləri ilə, sıx saçları ilə və alicənab üz quruluşu ilə.

Svanların adını ənənəvi "savane" iqamətgah sözü ilə izah edir, onların əcdadı olaraq isə gürcü çarı Parnavazın oğlu Osetiya və Qarabağ yolu ilə İnqurinin mənbəyinə gələn və orada məskunlaşan, burada ümidverici iqamətgah tapan Surmaxı hesab edir. Şair söyləyir ki, svanları gözəlliklərinə və mərdliklərinə görə yalnız çərkəzlər ilə müqayisə edirlər. Onların təsərrüfatı, Dadeşkelianilərin hökmranlığı, igidlikləri, rəqslərimahnıları, qadın ləyaqəti uğrunda meydanda mətinliklə mübarizəsi, möhkəm qüllələri, müqəddəs andı, böyük ailələri, əksəriyyətinin "gürcü semiramidası" – çar Tamar tərəfindən inşa olunan gözəl kilsələr barədə uzun-uzadı danışır.

Şair Kutaisidə xəstəxanada dünyasını dəyişən şəxsi çıxararaq Svanetidə dəfn edən svanları görmüşdür. Çünki insan, onların inancına görə, doğulduğu yerdə dəfn olunmalıdır. Həm də cəngi ilə və xoruz ilə ruhu "aparmaq" mərasiminin şahidi olmuşdur və bunda "Ruhların köçürülməsi" inancının qəribə illüstrasiyasını görür. "Bu, həqiqətən qədimliyin canlı qırığıdır, bizim tarixin ta qədimdən qədim məişətinin tipik forması, hər bir xalqın ləyaqəti və mütəfəkkir insanın mühakiməsi və mənafeyidir". Yüz verstdə təkəmseyrək daxmalardan savayı bir kimsənin bulunmadığı və sal qaya parçalarının, qar sürüşməsinin uçuruma diyirləməsi ilə hədələdiyi aşılmaz, yolsuz dağları və dərələri, yolun-cığırın açıldığı uca dağlıq yerlərdə gürcü yazıçıları barəsində söhbət açır. Təbiətən ayrıca salınmış camaat hörmət etdiyi qonaqpərvərliyin xalis ənənəsini yüksəkdə tutur və bu xeyirxahlıq çiçəyi altında uyuyan əfi ilanı – qana qan almağı pisləyir. Lakin bu adəti də xeyirxahlıq hissləri ilə izah edib. Qardaşının, oğlunun və ya atasının qətlə yetirilməsinə görə qisas alana camaat hörmət bəsləyir və "daha təbii heç nə deyildir: İnsanın qanuna riayət etmədiyi yerdə özünü müdafiə etmək üçün öz biləyinə güvənməlidir" deyiblər. Elə burada qeyd edir ki, ölkədə daha ağır adət – müharibə, qırmaq-batırmaq, bunlar cinayət hesab olunmur, halbuki, daha pisi, təkəbbürlə diktə olunur deyirlər.

Bodenştedt svan dilinin səslənməsini nümunəvi hesab edir, bir çox svan kəlməsini düzgün latın yazısı ilə gətirir və svanların möhkəmliyinə, dili, adəti və həyat manerası ilə dürüst şəkildə ayrılmaz qardaşlarına –gürcülərə bənzəməsinə heyran qalır, halbuki, təbiət belə bir çəpər çəkir. "Bu camaat özünün elə tarixi əhəmiyyətinə görə deyil, xarici təsirdən yüksək dağlar ilə hansısa başqa iber tayfasından artıq əhatə olunan, min illər ərzində ən möhkəm şəkildə qoruyub saxlamasına görə bizim diqqətimizi cəlb edir".

"Nino" poemasında İran şahı Şapurun və çar Mirianın dövrünün hadisələri təsvir olunub. Mirianın qəzəbini, hər cür təhlükədən xilas olan xeyirxahlıq övladı gözəl Nino söndürür, baş kahinin özünü günahlandırır, elə onun istəyi ilə bütləri qırırlar və Sameba məbədini ucaldırlar.

Və həmin andan Tanrı mərhəməti



göstərildi

Günəşli Kolxetinin xoşbəxt xalqına
və torpağına...
Və müqəddəs Ninonun yaşadığı
sarayda,
Bu günə qədər mahnı və qədim əfsanə
yaşayır.

*( sətri tərcümə)*

Lakin çox hallarda bu, müşahidə edən şair və etnoqraf üçün də yad adam üçün yad xalq və əşya barəsində mühakimənin müşayiət etdiyi daim dəf olunmayan manea manea olaraq qalır. Bodenştedtin də uyğunsuzluq, ənənəvi, düzgün olmayan və səthi yerləri vardır – gürcü ədəbiyyatı, yaşayışı, qadınların gözəlliyi və təhsili məsələlərinə dair və sair mühakimələrdə daha artıq. Doğrudur, özünü ağıllı aparır və qaydasınca dilini bilmədiyi xalqın ədəbiyyatı barədə məzəmmətlər söyləməkdən çəkinir. Lakin dediklərindən də görünür ki, bizim ədəbiyyatı necə səthi bilir, onun müasiri həyatının son illərini Naxçıvan və Gəncəyə getməmişdən öncə məhz elə Bodenştedtin Tiflisdə olması dövrünə təsadüf etdiyi Nikoloz Barataşvilini və Aleksandr Çavçavadzeni xatırlamır. Halbuki, onu bəşəri ideallara mübtəla olan Avropa üsullu ədəbiyyat da maraqlandırmır. Ona Qərbdə əkmək üçün Qroteski, Hafiz, Şərq ətri, min bir gecə mozaikası, fars poeziyasının gülləri lazımdır və tapdı da – Mirzə Şəfinin nəğmələri şəklində.

***(Davamı gələn sayda...)***

## ZAUR DARĞALLI 78,6% SƏSLƏ MARNEULİ RAYONUNUN MERİ SEÇİLİB



Gürcüstanın Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən, Marneulidə keçirilən seçkilərdə hakim "Gürcü arzusu" partiyasının namizədi Zaur Dargallı səslərin 78,6%-ni əldə edərək Marneulinin icra başçısı seçilib.

Müxalif Vahid Milli Hərəkat Partiyasının namizədi Aqil Mustafayev 11,49%, müxalif "Avropalı Gürcüstan" partiyasının namizədi Əhməd İmamquliyev 7,54%, müstəqil namizəd Əli Bədirov isə 1,21% səs toplayıb.

Qeyd edək ki, mayın 19-u Marneulidə keçirilmiş seçkilərdə rayon rəhbəri vəzifəsi uğrunda 15 namizəd mübarizə aparıb. Rayonda seçici fəallığı isə 35,82% təşkil edib.

## MARNEULİDƏ BAKININ İŞĞALDAN AZAD OLUNMASINDA İŞTİRAK ETMİŞ TÜRK ƏSGƏRLƏRİNİN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLƏCƏK



Marneuli rayonunun Qızılhacılı kənd qəbirstanlığında yerləşən 1918-ci ildə Bakının işğaldan azad olunmasında iştirak etmiş türk əsgərlərinin məzarları abadlaşdırılacaq.

"Report"un Gürcüstan bürosu xəbər verir ki, bu barədə məzarlara baxış keçirəndən sonra Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan bildirib.

Kənd ağsaqqalları İsrfail Bayramov və İmdad Məmmədov səfirə bildiriblər ki, qəbirstanlıqda Qafqaz İslam Ordusunun 7-8 əsgərinin məzarı var. Onların sözlərinə görə, sel suları və baxımsızlıq məzarların dağılması və itməsinə səbəb olub.

F.C.Yazqan kənd sakinlərinə türk əsgərlərinin xatirəsinə göstərdikləri ehtirama görə təşəkkür edib: "Şəhidlər unudulmamalıdır. Onların ruhuna hörmət etmək borcumuzdur".

Səfirin sözlərinə görə, Bakının azad olunmasından sonra Gürcüstandan keçərək Türkiyəyə qayıdan bəzi türk əsgərləri vəba və digər xəstəliklərə yoluxaraq vəfat ediblər: "Gürcüstan hökumətinin dəstəyi ilə Qızılhacılı kənd qəbirstanlığında dəfn olunan türk əsgərləri ilə bağlı araşdırma aparılacaq. Onların məzarları abadlaşdırılacaq və xatirə lövhəsi ucaldılacaq. Bu tarixi yeri gələcək nəsillər üçün qoruyub saxlamaq lazımdır. Türkiyədən və Azərbaycandan gələn insanlar türk əsgərlərinin xatirəsini dərin ehtiramla yad edib onların ruhlarına dua oxuyacaqlar".

F.C.Yazqanla yanaşı məzarların olduğu yerlə Türkiyə səfirliyinin məsul əməkdaşları, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Tbilisi koordinatoru Necla Demirdağ da tanış olub. Onlar türk əsgərlərinin məzarlarının olduğu yerə gül dəstələri qoyublar.

## QARDABANİDƏ MEDALÇI MƏZUNLARLA GÖRÜŞ KEÇİRİLİB

Qardabani rayonunda 2016-2017-ci tədris ilində qızıl və gümüş medala layiq görülmüş ictimai məktəblərin məzunları ilə görüş keçirilib. Görüşdə gənclərə medallar təqdim olunub.

Qardabani rayon Resurs Mərkəzində baş tutan görüşdə rayonun icra başçısı Ramaz Budağaşvili, sakrebulo sədrinin müavini Rəfi Orucov və digər rəsmi şəxslər iştirak ediblər.

R.Budağaşvili bildirib ki, 33 məzunun qızıl və gümüş medal alması rayon üçün yaxşı göstəricidir: "20 məzun qızıl, 13-ü isə gümüş medala layiq görülüb. Qardabanidə medal alan məzunların sayının ildən-ilə artması qürurvericidir. Bu göstəriciyə görə müəllim və valideynlərə təşəkkür edirəm".

Rəfi Orucov məzunlar arasında qızıl medal alanların 7-sinin, gümüş medal alanların isə 2-sinin azərbaycanlı olduğunu bildirib.

## TÜRKİYƏ SƏFİRİ GÜRCÜSTANIN AZƏRBAYCANLI GƏNCLƏRİ VƏ İŞ ADAMLARININ PROBLEMLƏRİ İLƏ TANIŞ OLUB

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Marneuli rayonunda azərbaycanlı iş adamları və Türkiyə ali məktəblərinin azərbaycanlı məzunları ilə görüşüb.

Mülki Məşğulluq Mərkəzində keçirilən görüşdə səfir azərbaycanlı iş adamlarını və gəncləri narahat edən məsələlərlə tanış olub.

Borçalı İş Adamları Birliyinin sədri İsrafil Bayramov bildirib ki, Türkiyədə ali təhsil alıb Gürcüstana qayıdan azərbaycanlı gənclərin ən əsas problemi işsizlikdir və bu da əsasən onların əksəriyyətinin gürcü dilini bilməmələri ilə bağlıdır.

O qeyd edib ki, Marneuli rayonunda Türkiyə ilə biznes əlaqələri quran azərbaycanlı iş adamları bu ölkəyə məhsul ixracında müəyyən çətinliklərlə üzləşirlər.

F.C.Yazqan bildirib ki, Gürcüstanda yaşayan azərbaycanlılar ölkə cəmiyyətinə inteqrasiya etmək üçün dövlət dilini mütləq öyrənməlidirlər: "Gürcü dilini öyrənmək öz ana dilini unutmaq anlamına gəlməməlidir.



İnteqrasiya assimilyasiyaya çevrilməməlidir. Azərbaycanlılar öz milli mənsubiyyətlərini qoruyub saxlayaraq inteqrasiya prosesində fəal iştirak etməlidirlər".

Gəncləri narahat edən problemlərə toxunan səfir Tbilisidə Türkiyə Məzunları Dərnəyinin fəaliyyət göstərdiyini deyib. Diplomat azəbaycanlı gəncləri həmin təşkilata üzv olmağa dəvət edib.

Onun sözlərinə görə, Gürcüstanda fəaliyyət göstərən Gürcü-Türk İş Adamları Dərnəyi (GURTİAD) və Müstəqil Sənayeçi və İş adamları Dərnəyi (MÜSİAD) azərbaycanlı gənclərin işlə təmin olunması imkanlarını araşdıra bilər.

Diplomat Kvemo Kartli bölgəsində yetişdirilən məhsulların Türkiyə bazarına çıxarılması zamanı yaranan problemlərin araşdırılacağını qeyd edib. Onun sözlərinə görə, səfirlik bölgədən olan iş adamlarının Türkiyəyə səfər etmələrinə dəstək göstərə bilər.

F.C.Yazqan Kvemo Kartli bölgəsinin böyük iqtisadi potensiala malik olduğunu bildirib: "Bu bölgədə kənd təsərrüfatı və xüsusən də turizm sahəsinin inkişafı üçün böyük imkanlar var. Türkiyədən Gürcüstana səfər edən turistlər üçün azərbaycanlıların yaşadığı bu bölgə olduqca maraqlı ola bilər. Turist səfərlərinin təşkili üçün bölgədə turizm şirkətləri açılmalı və turistlərin rahatlığı üçün tələb olunan şərait yaradılmalıdır".

Görüş iştirakçıları Türkiyə səfirinə onlara göstərdiyi diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Mənbə: Report

## ARAFLI MƏKTƏBİNİN MÜƏLLİMİ: "VALİDEYNLƏRƏ DEYƏNDƏ Kİ, UŞAQ DƏRSİ DANIŞA BİLMİR, CAVAB VERİRLƏR Kİ, DÖYƏCƏM!"



Xalq Müdafiəçisi öz hesabatında tez-tez ölkədə və xüsusən də regionlarda ictimai məktəblərin infrastrukturunun ağır vəziyyətdə olmasından danışır. Bu fotolar Marneuli bələdiyyəsinin Araflı kənd məktəbindəndir. Məktəbdə milli azlıq nümayəndəsi olan 300 uşaq təhsil alır. Onların 25 nəfəri gürcü sektorundadır, qalanı isə Azərbaycan sektorunda.

İnfrstruktur məktəblərə bir baxışla görə biləcəyiniz problemdir, ancaq bu, yalnız problemin üz tərəfidir. Gürcüstanın bu kəndinə ilk dəfə gedən adam görər ki, ən əsas maneələrdən biri dövlət dilidir. Əhalinin əksəriyyəti azərbaycanlıdır və onların çoxuna gürcü dilində heç nə başa sala bilməzsiniz.

Gənc nəsildə vəziyyət müqayisədə yaxşıdır. Məktəb Azərbaycan dillidir və uşaqlar gürcü dilini öyrənirlər. İki ildir ki, Azərbaycan sektoru ilə yanaşı məktəbdə gürcü sektoru da açılıb və 300 şagirddən 25-i gürcü sektorunda təhsil alır.

"Hamı azərbaycanlıdır və birinci sinfə gələndə gürcü dilində bir söz də bilmirlər. Problem ondadır ki, ailədə uşağa kömək edə bilmirlər, yazmaqda çətinlik çəkirlər, əlavə çalışmalara ehtiyac var və hər şeyi edirik. Dərslərdən əlavə tənəffüsdə də onların yanında oluram, söhbət edirik. Mənim əsas məqsədim odur ki, uşaqlar dili yaxşı mənimsəsinlər. İkinci sinfim var, çox yaxşı dərk edən şagirdlərim var, amma dil maneəsinə görə fikirilərini formalaşdıra bilmirlər və bu problemi aradan qaldırmaq istəyirəm. Uşaqlara baxıram və təsəvvür edirəm ki, onların bəzilərini erkən yaşda evləndirə bilərlər, düşünürəm, necə həyatları olacaq", - məktəbin gürcü sektorunun ibtidai sinif müəllimi Sopo Abaşidze deyir.

Gender məsələləri milli azlıqların məskunlaşdığı regionlarda daha bir problemdir. Pedaqoq düşünür ki, əhalidə mərhələli şəkildə mentalitet dəyişdirilməlidir:



"Məktəbə uşaqlarla bağlı valideynlər də gəlirlər, burada əsasən bu prosesə nənə-babalar qoşulub. Yəqin mentalitetdən irəli



gəlir. Gənc qadının bayıra çıxmasına bir az başqa çür baxırlar. Düşünürəm şagirdlərdə bu yanaşma dəyişir və şəxsən mən bunun üçün hər şey edirəm. Mənim qrupumda 15 uşaq var, onun 6-sı qızdır. Hər şəkildə



çalışıram ki, onlar öz hüquqlarını çox yaxşı bilsinlər. Valideynə deyəndə ki, uşağın hansısa problemi var, dərsi danışa bilmir, cavab verirlər ki, döyəcəm. Döymək adi hadisə olaraq görsənir. Çalışıram oxşar yanaşmalar dəyişsin, uşaqlara bir-biri ilə dalaşmağın, döyməyin pis olduğunu və bir-birindən üzr istəməyi öyrədirəm".

Sopo Abaşidze Acaradandır. O, ekomiqrant ailəsindəndir, Marneuli rayonunda yaşayır və iki məktəbdə dərs deyir. Gürcü məktəbində gürcü dili və ədəbiyyatı, Araflıda isə ibtidai sinif müəllimidir. Hər iki istiqamətdə də sertifikata malikdir və yaxın gələcəkdə aparıcı müəllim statusu qazanmağı planlaşdırır. Sopo deyir ki, iki işi olmasına baxmayaraq onun üçün peşə kompetensiyasını təsdiqləmək bürokratik maneə olmayıb, əksinə çox ideyaları var və maliyyələşdirmə yolları axtarır:

"Müxtəlif layihələrim var və uşaqlar çox maraqla qoşulublar. İstəyimiz var idi ki, Kobuletinin dini məktəbinin və Marneuli məktəbinin birgə tədbirlərini təşkil edək, yarışlar keçirək və müxtəlif aktivliklər planlaşdırmışdıq, amma maliyyə lazımdır və hələ ki, yollar tapmağa çalışıram".

Araflı ictimai məktəbinin direktoru deyir ki, məktəb artıq bərpa planındadır və bərpa işləri yaxın gələcəkdə başlayacaq.

***Mənbə: Edu.Aris.Ge***
***Gürcü dilindən tərcümə:***
***Aynurə Əliyeva***

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 MAY 2019-CU İL/ №010 (90)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTAN AZƏRBAYCANLILARININ 52%-İ SSRİ-NİN SUQUTUNU "PİS HADİSƏ" HESAB EDİR, 54%-İ GÜRCÜSTANIN AVROPA İTTİFAQINA İNTEQRASİYASINI DƏSTƏKLƏYİR

Gürcüstanda rəyi soruşulanların 39%-i SSRİ-nin süqutunu "pis hadisə" hesab edib. Bu barədə ABŞ-ın Milli Demokratiya İnstitutunun (NDI) Gürcüstan ofisinin ölkədə keçirdiyi sorğunun nəticələrində bildirilib.

Respondentlərin 50%-i Sovetlər Birliyinin dağılmasını "yaxşı hadisə" adlandırıb, 11%-i isə müfaviq suala "bilmirəm" deyə cavab verib.

Sorğuda iştirak edən yerli azərbaycanlıların 52%-i Sovet İttifaqının süqutunu pis, 25%-i yaxşı hadisə kimi qiymətləndirib. Onların 21%-i suala cavabı bilməyib.

NDI sorğunu bu ilin 28 mart - 15 aprel tarixində işğal altında olan ərazilər istisna olmaqla bütün Gürcüstan üzrə aparıb. Sorğuda 2 927 respondentdən birbaşa müsahibə alınıb.

NDI-ın sorğusunun nəticələrinə əsasən, Gürcüstanda yaşayan azərbaycanlıların 54%-i isə ölkənin Avropa İttifaqına inteqrasiyasını dəstəkləyir. Ermənilər arasında isə Gücüstanın Aİ-yə inteqrasiyasını dəstəkləyənlər 68% təşkil edir.

Sorğunun nəticələrinə əsasən, Gürcüstanda Aİ-yə üzvlüyü dəstəkləyənlər 2018-ci ilin dekabr sorğusu ilə müqayisədə 6% azalaraq 77% təşkil edib.

Sorğu bu ilin 28 mart-15 aprel tarixində Gürcüstanın böyük şəhərlərində 40 mindən çox sakin arasında aparılıb.

## GÜRCÜSTANDA 3 AY ƏRZİNDƏ 415 889 VİDEO CƏRİMƏ YAZILIB



Daxili İşlər Nazirliyinin rəsmi statistikasına əsasən, 2019-cu ilin birinci rübündə (yanvar, fevral, mart) ölkə miqyasında 16 301 060 lari dəyərində 415 889 video cərimə yazılıb.

Video cərimələrin sayına görə birinci yerdə Tbilisi, ikinci yerdə Kaxeti və üçüncü yerdə Acara durur.

Paytaxtda montaj edilmiş nəzarət kameraları yanvar, fevral və martda 279 875 cərimə faktı qeydə alıb və ümumilikdə 10 258 120 larini təşkil edir.

Ən çox video cərimə 40 192 Tbilisidə, Didube-Çuğureti rayonunda qeydə alınıb. Rəsmi statistikaya görə, qeyd olunan cərimələrin sahibləri nəqliyyat vasitələrinin hərəkəti zamanı şəhərin bu hissəsində yol işarəsi qaydalarını pozublar.

Tbilisidən sonra video cərimələrin sayına görə İmereti liderlik edir. Burada 2019-cu ilin birinci rübündə 37 268 video cərimə qeydə alınıb və məbləğ olaraq 1 507 450 larini təşkil edib.

Cari ilin birinci rübündə video cərimələrin ən az sayı Quriyada qeydə alınıb. Quriya miqyasında video cərimələr yalnız Ozurgetidə qeydə alınıb. Cəmi 2 772 cərimədən büdcəyə ödənən məbləğ 147 400 lari təşkil edib.

2019-cu ilin birinci rübündə video cərimələrin və cərimələrdən büdcəyə daxil olan məbləğin miqdarını regionlara görə təqdim edirik:

Acara - 34 564 video cərimə - 1 276 750 lari

Ozurgeti - 2 772 video cərimə - 147 400 lari.

Tbilisi - 279 875 video cərimə - 10 258 120 lari

İmereti - 37 268 video cərimə - 1 507 450 lari.

Kaxeti - 7 591 video cərimə - 398 390 lari.

Mtsxeta-Mtianeti - 4 551 video cərimə - 258 000 lari.

Sameqrelo-Zemo Svaneti - 13 316 video cərimə - 686 500 lari.

Samtsxe-Cavaxeti - 8 357 video cərimə - 430 650 lari.

Kvemo Kartli - 17 486 video cərimə - 1 028, 250 lari.

## 4 İYUNDAN KUTAİSİ AEROPORTUNDA DAHA BİR AŞAĞI BÜDCƏLİ AVİAŞİRKƏT FƏALİYYƏTƏ BAŞLAYIR

İyunun 4-dən Kutaisi hava limanında daha bir aşağı büdcəli aviaşirkət – SkyUp şirkəti fəaliyyətə başlayacaq. Bu haqda məlumatı hava limanı yayımlayıb.

Şirkət reysləri Kutaisi-Xarkov və Kutaisi-Odessa istiqamətində həyata keçirəcək. Uçuşlar həftədə iki dəfə davamlı həyata keçiriləcək.

## TATUNU SİLDİRMƏK ÜÇÜN DÖVLƏT PROQRAMI ÇƏRÇİVƏSİNDƏ 48 MİN LARİ AYRILIB

Məhbusluq həyatı yaşamış yetkinlik yaşına çatmayan şəxslərin reabilitasiya və resosializasiyasına dəstək olmaq üçün tatunu (döyməni) silmək üçün dövlət proqramı çərçivəsində 48 min lari ayrılıb. Bu haqda ədliyyə naziri Tea Tsulukiani bildirib.

"Ədliyyə Nazirliyi qeyri-hökumət təşkilatına 48 min lari verəcək ki, keçmiş məhbusların və ya N2 və N11 kameralarda cəza çəkən məhbusların döyməsini silsinlər. Bu, onların reabilitasiyasına və resosializasiyasına mane olur. Tatunu sildirmək olduqca çətin və bahalı prosesdir. Çağırış etmək istəyirəm ki, özləri əllərinə, dərilərinə zərər vurmasınlar. Bu asan silinən deyil və bir bu məbləğə – 48 min lariyə yalnız 60-a qədər benefisiarın tatusunu silə biləcəyik. Resosializasiya üçün bu çox vacibdir. Biz 2013-cü ildən 130-a qədər keçmiş məhbusun tatusunu sildirmişik və bu, onların özlərini cəmiyyətimizin tam üzvü olaraq hiss etmələrinə yardım edir", - deyə Tea Tsulukiani bildirib.

Qeyd edək ki, proqram 2012-ci ildən Tea Tsulukianinin təşəbbüsü ilə qüvvəyə minib.

## KVEMO KARTLİDƏ İŞSİZLİK SƏVİYYƏSİ ARTIB




Milli Statistika İdarəsinin illik hesabatına əsasən, ötən il Gürcüstanda işsizlik səviyyəsi 12,7% təşkil edib.

Sənədə əsasən, işsizliyin səviyyəsi illik müqayisədə 1,2% azalıb. 2018-ci ildə ölkədəki işsizlik göstəricisi son 15 ildə ən aşağı səviyyəyə enib.

Şəhər yerlərində işsizlik 1,2% artıb, kənd yerlərində 3,4% azalıb. Kvemo Kartli bölgəsində isə işsizlik səviyyəsi 1,2% artıb.

Gürcüstanda işsizlik səviyyəsi kişilər arasında daha yüksəkdir. Belə ki, ötən il kişilər arasında bu göstərici qadınlar arasındakı eyni göstəricidən 2,7% çox olub.

2018-ci ildə ən yüksək işsizlik göstəricisi 30,8% olmaqla 20-24 yaş qrupuna daxil olan şəxslər arasında qeydə alınıb.

## GÜRCÜSTANDA GƏNCLƏR AGENTLİYİ YARADILIR

Gürcüstanda Gənclər Agentliyi yaradılır. Yeni qurum hökumətin nəzdində fəaliyyət göstərəcək.

Müvafiq qanuna düzəlişlər mayın 29-u Gürcüstan parlamentində 88 səs çoxluğu ilə qəbul olunub.

Qanun layihəsini ölkənin Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi hazırlayıb.

Gənclər Agentliyi Uşaq və Gənclərin İnkişaf Fondu və Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin nəzdindəki Uşaq və Gənclər Milli Mərkəzinin birləşdirilməsi yolu ilə yaradılacaq.

Agentliyin təsis olunmasında məqsəd hökumətlə uşaq və gənclər arasındakı əlaqələrin genişləndirilməsi, onlara dövlət dəstəyinin göstərilməsi və hüquqlarının müdafiəsidir.

## APREL AYINDA GÜRCÜSTANDAN VƏ GÜRCÜSTANA ƏN ÇOX PUL KÖÇÜRÜLƏN ÖLKƏLƏR



Cari ilin aprel ayında Gürcüstandan ən çox pul Rusiya, Türkiyə, Ukrayna və Azərbaycana köçürülüb.

Gürcüstan Milli Bankının məlumatına görə, 2019-cu ilin aprel ayında Gürcüstandan xaricə 19.1 milyon ABŞ dolları (51.5 milyon lari), ötən ilin analoji dövründə isə 18.5 milyon ABŞ dolları (45.0 milyon lari) göndərilib.

Cari ilin aprelində Gürcüstandan Rusiyaya 6,5 milyon dollar, Türkiyəyə 2,4 milyon dollar, Ukraynaya 2,32 milyon dollar, Azərbaycana 1,15 milyon dollar, Yunanıstana 782,6 min dollar, Ermənistana 656 min dollar, Özbəkistana 442 min dollar, Qırğızıstana 390 min dollar, ABŞ-a isə 359 min dollar köçürülüb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.